## Milli informasiya təhlükəsizliyi üzrə mükəmməl strategiya

Prezident İlham Əliyev «İnformasiya təhlükəsizliyi sahəsində fəaliyyətin təkmilləşdirilməsi tədbirləri haqqında» fərman imzalayıb. Sənəddə ölkəmizdə informasiya proseslərinin mühafizəsi, sabitliyi və fasiləsizliyi, dövlət orqanlarının informasiya ehtiyatlarının qorunması, bu sahədə təhdidlərin qarşısının alınması, təhlili və qabaqlanması üçün dövlət və qeyri-dövlət informasiya infrastrukturu subyektlərinin, onların istifadəçilərinin fəaliyyətinin əlaqələndirilməsi, kibertəhlükəsizlik sahəsində risklərin qiymətləndirilməsi və idarə olunması, həmçinin digər tədbirlərin gücləndirilməsi ilə bağlı mühüm müddəalar öz əksini tapıb. Respublikamızda informasiya təhlükəsizliyi siyasətinin təmin olunması və bu sahədə dövlət siyasətinin həyata keçirilməsi məqsədilə yeni qurum - Xüsusi Dövlət Mühafizə Xidmətinin Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Agentliyi də yaradılıb.

***Dövlət orqanlarının informasiya sistemlərinin təhlükəsizliyi gücləndiriləcək***

Yeni yaradılmış Agentlik xüsusi təyinatlı informasiya-telekommunikasiya sistemlərinin və şəbəkələrinin, idarələrarası elektron sənəd dövriyyəsinin, dövlət orqanlarının internet şəbəkəsi ilə əlaqəsinin, onların internet informasiya resurslarının məlumat və resurs mərkəzində yerləşdirilməsinin təşkilini, təhlükəsizliyini və inkişafını təmin edəcək, dövlət mühafizəsi obyektlərinin təhlükəsizliyini təmin etmək məqsədi ilə xüsusi texniki tədbirləri həyata keçirəcək. Dövlət orqanlarında kibertəhlükəsizlik sahəsində hazırlığın artırılması, bu sahədə qabaqlayıcı tədbirlərin həyata keçirilməsi, internet informasiya resurslarının və informasiya sistemlərinin təhlükəsizlik parametrləri üzrə monitorinqlər, onların kibertəhlükəsizliyinin artırılması, dövlət orqanlarının informasiya sistemlərinin təhlükəsizliyi barədə məlumatların verilməsi yeni strukturun səlahiyyətlərinə aid olacaq.

«Multimedia» İnformasiya Sistemləri Texnologiyaları Mərkəzinin rəhbəri Osman Gündüz «Vergilər» qəzetinə açıqlamasında bildirib ki, dövlət başçısının fərmanında respublikamızın milli təhlükəsizliyinin təmin olunmasında mühüm rola malik informasiya resurslarının qorunması, kiberhücumların qarşısının alınması, dövlət idarələrinin elektron xidmətlər və informasiya sistemlərinin təhlükəsizliyinin mühafizəsi kimi çoxplanlı fəaliyyət istiqamətləri öz əksini tapıb: «Sənəddə respublikamızın dövlət və qeyri-dövlət qurumlarının internet təhlükəsizliyinin qorunması, informasiya təminatı və digər strateji məqamlar nəzərdə tutulub. Bu sahədə dövlət siyasətini həyata keçirən mərkəzləşdirilmiş qurumun yaradılması kibertəhlükəsizlik sahəsində informasiya infrastrukturu subyektlərinin fəaliyyətinin koordinasiyasına, mövcud və yarana biləcək elektron təhlükələr barədə ölkə səviyyəsində məlumatların toplanmasına, əhalinin, özəl və digər qurumların kibertəhlükəsizlik sahəsində maarifləndirilməsinə və onlara metodiki köməyin göstərilməsinə səbəb olacaq».

***Kiberhücumlara qarşı koordinasiyalı fəaliyyət...***

Osman Gündüzün qeyd etdiyinə görə, informasiya təhlükəsizliyinin lazımi səviyyədə təmin edilməsi dövlətin, cəmiyyətin və insanların fəaliyyətinin vacib şərtlərindən biridir. Milli informasiya təhlükəsizliyi və kibertəhlükələrə qarşı güclü platformanın yaradılması hər bir dövlətin strateji fundamental məqsədlərindən biri sayılır: «Son illər qlobal informasiya cəmiyyətinin formalaşması nəticəsində dövlətlərarası ziddiyyətlər və münaqişələr virtual məkana da keçib. Qloballaşan dünyada informasiya texnologiyalarının yaratdığı imkanlardan sui-istifadə etməklə cinayətin yeni növləri yaranır, dövlətin ərazi bütövlüyü ilə bağlı məlumatlar təhrif edilir, terrorizm ideologiyasının təbliğ edilməsi və terror aktlarının planlaşdırılması üçün internet şəbəkəsindən fəal şəkildə istifadə olunur. Bu gün informasiya təhlükəsizliyinə təhdidlər çox ciddi mərhələyə keçmişdir. Bu təhlükəli amilə qarşı mübarizə aparmaq üçün bütün dünya birliyinin fəal səylərinin birləşdirilməsi, habelə müasir təhdidlərin aradan qaldırılması və qarşısının alınması probleminə əsaslı yeni strateji yanaşmanın formalaşması zəruridir.İnformasiyanın artmaqda olan əhəmiyyəti qarşılıqlı informasiya təsiri proseslərinin tənzimlənməsinin təmin olunması üçün dövlətin fəal müdaxiləsini tələb edir. İnformasiya texnologiyalarının inkişafı artıq bu gün cəmiyyət həyatının, demək olar, bütün sahələrində genişmiqyaslı mənfi nəticələr doğurur. İnformasiya-kommunikasiya texnologiyalarının

geniş yayılması və istifadəsi nəticəsində virtual məkanda formalaşan şəbəkəni, həmçinin istifadəçilərin informasiya resursları və sistemlərini mümkün təhdidlərdən qorumaq məqsədilə informasiya təhlükəsizliyi olduqca zəruridir».

«Multimedia» İnformasiya Sistemləri Texnologiyaları Mərkəzinin rəhbərinin qeyd etdiyinə görə, son dövrlər bir çox ölkələrdə, o cümlədən MDB məkanında informasiya şəbəkələrinə müdaxilə, kiberhücumların geniş xarakter alması müşahidə edilir. İşğalçı Ermənistanın kiberhücumları da bu sıradandır: «Təəssüf ki, Azərbaycan aşkar informasiya təhrikçiliyi nümunələri ilə tez-tez üzləşir. Belə hallara total formada «Eurovision-2012» müsabiqəsi zamanı daha çox rast gəlindi və həmin qurumun internet saytı dağıdıldı. Azərbaycanın veb-saytları kənar hücumlara məruz qaldı, eləcə də Ermənistan ilə Azərbaycan arasında münaqişənin mahiyyəti haqqında yalan məlumatlar yayan informasiya resurslarının yaradılması, ərazilərin adları dəyişdirilmiş saxta xəritələrin hazırlanması, bu məqsədlər üçün respublikamıza aid domen adlarından istifadə edilməsi ölkəmizə qarşı haker hücumlarının müxtəlif növləri hesab edilə bilər».

***Azərbaycan ən qabaqcıl və innovativ informasiya təhlükəsizliyi standartlarını tətbiq edəcək...***

Mütəxəssis bildirir ki, heç bir ölkə kiberhücumlardan, haker hücumundan sığortalanmayıb. Dünyanın aparıcı ölkələrinə mənsub olan çox mühüm saytlar da dağıdılır. Bu, virtual məkanın, informasiya müharibəsinin gətirdiyi təzahürlərdir: «Bu problemləri təfərrüatlı şəkildə və tam dəqiqliklə araşdırmaq gərəkdir. Yəni bu cür təhlükələrin hansı IP ünvanlardan, hansı ölkələrdə fəaliyyət göstərən provayderlər tərəfindən həyata keçirilməsini aydınlaşdırmaq mütəxəssislərin, təhlükənin mənbəyi ilə bağlı tədbirlər görmək müvafiq dövlət qurumlarının işidir. Ona görə də informasiya təhlükəsizliyi ilə bağlı vahid starteji konsepsiyanın müəyyən olunması, mərkəzləşdirilmiş dövlət strukturunun yaradılması bu sahədə əhəmiyyətli dəyişikliklərə gətirib çıxaracaq. Dövlət və qeyri-dövlət qurumlarının informasiya sistemlərinin güclü təhlükəsizlik şəbəkəsi formalaşacaq. Bu amil Azərbaycanda yaradılan «Elektron hökumət» vasitəsilə əhaliyə müxtəlif elektron xidmətlərin göstərilməsinə də müsbət təsir göstərəcək, elektron xidmətlərlə bağlı dövlət orqanlarının öz funksiyasını tam yerinə yetirə bilməsinə imkan verəcək. İnformasiya təhlükəsizliyi ilə bağlı bütün sahələrdə operativ və çevik fəaliyyətin təmin olunması, anti-virus, anti-haker proqram məhsullarının tətbiq edilməsinə gətirib çıxaracaq. Bir sözlə, dünya tərəfindən qəbul edilmiş ən qabaqcıl və innovativ informasiya təhlükəsizliyinə dair standartların Azərbaycanda tətbiq edilməsinə dərin zəmin yaranacaq. Xüsusi Dövlət Mühafizə Xidmətinin Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Agentliyinin yaradılması ölkəmizdə informasiya təhlükəsizliyi siyasətinin möhkəmlənməsinə, dövlət, ictimai və fərdi informasiya ehtiyatlarının qorunmasına, habelə informasiya sahəsində milli maraqların müdafiəsinə yönəlmiş tədbirlər kompleksinin həyata keçirilməsinə səbəb olacaq.

Elbrus CƏFƏRLİ